**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# XIX ƏSR AZƏRBAYCAN SATİRİK ŞEİRİ

İxtisas: 5716.01 – Azərbaycan ədəbiyyatı

Elm sahəsi: Filologiya

İddiaçı: **Selcan Habil qızı Quluzadə**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim olunmuş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı - 2025**

Dissertasiya işi Bakı Dövlət Universitetinin Azərbaycan ədəbiyyatı tarixi kafedrasında yerinə yetirilmişdir.

| | |
|---|---|
| Elmi rəhbər: | filologiya elmləri doktoru, professor<br>**Sənan Məmmədəli oğlu İbrahimov** |
| Rəsmi opponentlər: | filologiya elmləri doktoru, professor<br>**Elman Hilal oğlu Quliyev** |
| | filologiya elmləri doktoru, dosent<br>**Aytən Abuzər qızı Hacıyeva** |
| | filologiya üzrə fəlsəfə doktoru, dosent<br>**Qədim Kərim oğlu Qubadov** |

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin nəzdində fəaliyyət göstərən ED – 1.31 Dissertasiya şurası.

| | |
|---|---|
| Dissertasiya şurasının sədri: ________________ | AMEA-nın həqiqi üzvü, filologiya elmləri doktoru, professor<br>**Rafael Baba oğlu Hüseynov** |
| Dissertasiya şurasının elmi katibi: ________________ | filologiya üzrə fəlsəfə doktoru<br>**İlhamə Mürsəl qızı Gültekin** |
| Elmi seminarın sədri: ________________ | filologiya elmlər doktoru, professor<br>**Cəlil Qərib oğlu Nağıyev** |

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** XIX əsrdə Azərbaycan tarixində baş verən ictimai-siyasi proseslər, türk və islam mədəniyyətində mühüm yer tutan Azərbaycanın yeni siyasi və mədəni coğrafiyaya inteqrasiya olunması həm cəmiyyətin, həm də bədii düşüncənin qarşısında yeni vəzifələr qoymuşdu.

Əsrlərdən bəri klassiklərimizin ədəbi yaradıcılığında bir xətt kimi keçən maarifçilik ideyaları artıq XIX əsrdə güclü hərəkata çevrildi. Bu proses həm də tarixi hadisələrlə əlaqədar idi. Şimali Azərbaycanın Çar Rusiyası tərəfindən işğalı xalqımızın ictimai-siyasi həyatında ciddi problemlər yaratdı. Qabaqcıl elmi-texniki tərəqqiyə malik Avropa dövlətləri artıq Şərq xalqlarına həqarətlə baxır, onları mövhumatlıqda ittiham edirdilər. Ədəbiyyat cəmiyyətin güzgüsü kimi, həmin problemlərə biganə qala bilməzdi. Ona görə də ziyalılarımız yaranmış siyasi böhranı aradan qaldırmağın yolunu xalqı maarifləndirmədə görüb "Rus elminə ehtiyacımız çoxdur, bilməsək əlacımız yoxdur" (S.Ə.Şirvani), "Əcnəbilər göydə balonlarla gəzir, biz hələ avtomobil minməyiriz" (M.Ə.Sabir) kimi çağırışlar etməyə başladılar. XIX əsrdə maarifçi şairlərimizin belə çıxışları həm də ədəbiyyatımızda satirik baxışı gücləndirdi.

Bəllidir ki, həm şifahi xalq ədəbiyyatı qaynaqlarında, həm də yazılı ədəbiyyatın ilkin nümunələrində gerçəkliyə münasibətdə, əsasən, öyüd-nəsihət, tərənnüm tipli yazılar üstünlük təşkil etmişdir. Həmin bədii təfəkkür nümunələrilə, əslində, gəncliyə, gələcək nəslə olub-keçənlər, baş verən hadisələr haqqında poetik informasiyalar verilmiş, onların diqqəti dünyanın dərkinə, düzgün, qanunauyğun yaşayış tərzinin qurulmasına yönəldilmiş, həyatda rast gəlinən məhrumiyyət və uğursuzluqlar kədərli və nisgilli notlarla dilə gətirilmişdir. Lakin cəmiyyətin inkişafı nəticəsində insanlar arasındakı təbəqələşmənin getdikcə daha aydın nəzərə çarpması fərqli yanaşmaları, ziddiyyətli məqamları ortaya qoymuşdur. Qədim və orta əsrlərdə bu cür hallara ictimai-ədəbi münasibət daha çox dini-fəlsəfi mahiyyətdə üzə çıxırdısa, XVIII əsrin sonları və XIX əsrin əvvəllərində ictimai etiraz və tənqid tədricən satirada öz əksini tapmağa başlamışdı. Ədəbiyyatda tənqid başlanğıc mərhələdə ayrı-

ayrı fərdlərə, onların acgözlüklərinə, rəhmsiz, ədalətsiz əməllərinə qarşı yönəldilirdi.

Həyatın inkişaf tempinə, ziddiyyətli məqamlara cavab olaraq yazılı ədəbiyyatda üzə çıxan tənqid motivləri getdikcə kəskinləşsə, sərtləşsə də, bu sərtləşmənin bədii-estetik ifadə səviyyəsi aşağı enir, çox zaman tənqid az qala təhqirlə əvəz edilirdi. Bu hal bədii ədəbiyyatda, daha dəqiq desək, poeziyada həcvlərin yaranmasını şərtləndirmiş və XIX əsrin əvvəllərində hər cəhətdən yüksələn xətlə inkişaf edərək özünün kamil pilləsinə çata bilmişdir. Lakin bu da həqiqətdir ki, Azərbaycan ədəbiyyatında satirik poeziyanın təşəkkülü və inkişafı prosesinə müxtəlif elmi münasibətlərin mövcudluğu özünü göstərmiş və bir çox hallarda ictimai-fəlsəfi məzmun daşıyan, dövrdən, zəmanədən narazılıq ifadə edən ciddi şeirlərin də satirik poeziya nümunələri hesab olunması hallarına yol verilmişdir. Odur ki, ədəbiyyatşünaslığımız üçün heç də yeni olmayan, ənənəvi elmi problemin daha əhatəli tədqiqi, bədii-tarixi həqiqətin ortaya qoyulması təxirəsalınmaz vəzifə olaraq qarşıda durur və bu da mövzunun aktuallığını, araşdırılma zərurətini bir daha göstəmiş olur.

Satira həm siyasi düşüncədə, həm də sosial problemlərin həllində olduqca təsirli metoddur. XIX əsr satirik şairlərimiz bu üslubun kinayə, sarkazm, həcv, yumor formalarından məharətlə istifadə edib, milli-mənəvi dirçəlişimiz üçün vacib olan keyfiyyətləri təbliğ etmişlər. Onların satirik şeirlərindəki tənqid hədəfləri sağlam düşüncənin ifadəsi idi. Bu mənada XIX əsr Azərbaycan satirik şeirindəki tənqid hədəflərinin daha dərindən öyrənilməsi vacibdir.

Kütləvi hərəkata çevrilmiş maarifçilik dövrün siyasi, ictimai tələbləri əsasında çağırışlar edir, cəmiyyətdə olan geriliyə, xurafata, mövhumata, ölkənin siyasi həyatındakı neqativ hallara qarşı kəskin mövqe tuturdu. Ədəbi çağırışlar həm də cəmiyyətdə siyasi təlatümlər yaradıb (“Dindirir əsr bizi dinməyiriz, atılan toplara diksinməyiriz”), inqilabların baş verməsinə səbəb oldu, milli özünüdərki gücləndirib, “imzalar içində niyə millətimizin imzasının olmaması” (M.Hadi) problemini ortaya atıb milli dövlətçiliyi formalaşdırdı.

XIX əsr satirik poeziyanın hərtərəfli araşdırılmasının əsası Feyzulla Qasımzadənin elmi araşdırmaları ilə qoyulmuşdur. Xüsusi ilə qeyd etmək lazımdır ki, keçən əsrin ortalarından başlayaraq

satiranın, satirik poeziyanın tədqiqi ilə bağlı müəyyən tədqiqatlar aparılmışdır. Kamran Məmmədovun "XIX əsr Azərbaycan şeirində satira", "Qasım bəy Zakir" [1], Nərgiz Paşayevanın "Sabirin novatorluğu"[2], Məmməd Məmmədovun "M.Ə.Sabir və Azərbaycan demokratik mətbuatı"[3], Cəfər Xəndan Hacıyevin "Sabir yaradıcılığının sənətkarlıq xüsusiyyətləri"[4], Yaşar Qarayevin "Realizm: sənət və həqiqət", "Tarix yaxından və uzaqdan" [5], Aydın Abıyevin "Türk ədəbiyyatında satira"[6], Bədirxan Əhmədovun "Azərbaycan satirasının inkişaf problemləri"[7], Arif Səfiyevin "Komediya və həyat"[8], Flora Kərimovanın "Azərbaycan təmsili"[9] və digər bu kimi əsərlərdə satiranın, xüsusən Azərbaycan poeziyasında satirik poeziyanın inkişaf xüsusiyyətləri, poetikası barədə maraqlı elmi mülahizələr söylənilmişdir. XIX əsr şairlərinin satira yaradıcılığını ayrılıqda izləmək üçün Ramiz Teymuroğlunun "Qasım bəy Zakir irsinin tədqiqi"[10], Süleyman Hüseynovun "Qasım bəy Zakir", "Seyid Əzim Şirvaninin yaradıcılıq yolu"[11], Raqub Kərimovun "Qasım bəy Zakir və müasirləri"[12], Zaman Əsgərlinin

---

[1] Məmmədov, K. XIX əsr Azərbaycan şeirində satira / K.Məmmədov. – Bakı: Elm, – 1975. – 273 s; Məmmədov, K. Qasım bəy Zakir / K.Məmmədov. – Bakı: Elm, – 1957. – 258 s.

[2] Paşayeva, N. Sabirin novatorluğu / N.Paşayeva. – Bakı: Mütərcim, – 1997. – 112 s.

[3] Məmmədov, M. Sabir: mübahisələr, həqiqətlər / M.Məmmədov. – Bakı: Yazıçı, – 1990. – 280 s.

[4] Hacıyev, C. Sabir yaradıcılığının sənətkarlıq xüsusiyyətləri / C.Hacıyev. – Bakı: Azərnəşr, – 1962. – 436 s.

[5] Qarayev, Y. Realizm: sənət və həqiqət / Y.Qarayev. – Bakı: Elm, – 1980, – 257 s.; Qarayev, Y. Tarix: Yaxından və uzaqdan / Y.Qarayev. – Bakı: Sabah, – 1996. – 712 s.

[6] Abıyev, A.Türk ədəbiyyatında satira / A.Abıyev. – Bakı: Elm, – 1991. – 170 s.

[7] Əhmədov, B. Azərbaycan satirasının inkişaf problemləri / B.Əhmədov. – Bakı: Elm, – 2000. – 295 s.

[8] Səfiyev, A. Komediya və həyat / A.Səfiyev. – Bakı: Yazıçı, – 1983. – 198 s.

[9] Kərimova, F. Azərbaycan təmsili / F.Kərimova. – Gəncə: Təhsil, – 2003. – 215 s.

[10] Teymuroğlu, R. Qasım bəy Zakir irsinin tədqiqi / R.Teymuroğlu. – Bakı: Kooperasiya, – 2007. – 136 s.

[11] Hüseynov, S. Qasım bəy Zakir / S.Hüseynov. – Bakı: Yazıçı, – 2010. – 344 s.; Hüseynov, S. Seyid Əzim Şirvaninin yaradıcılıq yolu / S.Hüseynov. – Bakı: Elm, – 1977. – 218 s.

[12] Kərimov, R. Qasım bəy Zakir və müasirləri / R.Kərimov. – Bakı: Elm və təhsil, – 2013. – 252 s.

“Seyid Əzim Şirvani”[13], Kamil Mirbağırovun “Seyid Əzim Şirvani”[14], Məmməd Məmmədovun “M.Ə.Sabir və Azərbaycan demokratik mətbuatı”[15] və b. elmi tədqiqat əsərləri diqqətə layiqdir.

Satira, satirik poeziya məsələləri ilə əlaqədar rus və dünya ədəbi-nəzəri fikrində də əhatəli araşdırmalar diqqəti cəlb edir. Bu cəhətdən A.Lunaçarskinin, İ.Eventovun, L.Yerşovun, Y.Borevin, Y.Elsberqin, A.Yefimov və başqalarının satira, satirik poeziya haqqında nəzəri mülahisələri maraq doğurur.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın əsas obyekti kimi Azərbaycan ədəbiyyatında satirik poeziya örnəkləri, XIX əsrdə satirik şeir nümunələrini yaradan A.A.Bakıxanov, Q.B.Zakir, B.B.Şakir, M.B.Nadim, M.F.Axundzadə, S.Ə.Şirvani, M.Ə.Sabir və İ.Qasir yaradıcılığı, həmçinin XIX əsr aşıq şeirinin nümayəndələrinin poetik irsi, habelə Cənubi Azərbaycan ədəbiyyatındakı satirik şeirin yaradıcıları, ilk milli mətbuat orqanımız olan “Əkinçi” qəzetindəki satirik görüşlər götürülmüşdür. Tədqiqatda satiranın nəzəri əsasları, XIX əsr Azərbaycan ədəbiyyatında satirik poeziyanın mövzu, ideya, janr əhatəsi, sənətkarlıq axtarışları da əsas tədqiqat obyektidir.

Dissertasiyanın araşdırma predmetini XIX əsrdəki satirik şeir nümunələrinin tənqid hədəfləri, satirik şeirin mövqeyi, daşıdığı ideya-estetik funksiya və satirik nümunələrdə təbliğ olunan maarifçi ideyalar təşkil edir.

**Tədqiqatın məqsədi və vəzifələri.** Dissertasiya işinin başlıca məqsədi XIX əsrdə Azərbaycan ədəbiyyatında satirik poeziyanın təşəkkül və inkişaf tarixini sistemli şəkildə izləmək, hər mərhələni səciyyələndirən xüsusiyyətləri analitik təhlil yolu ilə aşkara çıxarmaq, bununla da milli ədəbiyyatımızda satirik poeziyanın özünəməxsus cəhətlərini, XIX əsr satirik şeirinin təkamülündə satiranın əsas təmayüllərini müəyyənləşdirmək, milli ideologiya dəyərlərinin formalaşmasında satiranın rolunu və satirik poeziyanın poetik xüsusiyyətlərini göstərməkdir.

---

[13] Əsgərli, Z. Seyid Əzim Şirvani / Z.Əsgərli. – Bakı: Elm, – 2005. – 64 s.

[14] Mirbağırov, K. Seyid Əzim Şirvani / K.Mirbağırov. – Bakı: Azərbaycan EA Nəşriyyatı, – 1959. – 235 s.

[15] Məmmədov, M. M.Ə.Sabir və Azərbaycan demokratik mətbuatı / M.Məmmədov. – Bakı: Elm, – 1974. – 214 s.

Qarşıya qoyulan elmi-nəzəri məqsədə nail olmaq, araşdırılan əsərlərin ədəbiyyat tarixindəki yerini müəyyənləşdirmək üçün tədqiqat işində aşağıdakı elmi vəzifələrin icrası nəzərdə tutulmuşdur:

– satiranın nəzəri fikirdə qoyuluşunu araşdırmaq, onun əsas prioritetlərini ədəbi hadisə olaraq müəyyən etmək;

– satirik gülüşə müraciətin səbəbləri, tarixi zərurət, bədii gülüşün mahiyyəti, Azərbaycan və dünya ədəbi-elmi-nəzəri fikri kontekstində aydınlaşdırmaq;

– folklor qaynaqlarında satiranın təzahür hallarını, işlənilmə arealını aşkarlamaq;

– XIX əsr Azərbaycan ədəbiyyatında satirik gülüşün sistemli ədəbiyyat hadisəsi olduğunu nəzərə çatdırmaq, satirik poeziya ilə ictimai-mədəni mühitin bağlarını göstərmək;

– satiranın klassik Şərq didaktikasından maarifçiliyə doğru irəliliyən təsir dairəsini, xarakterik cəhətlərini ədəbi kontekstdə araşdırmaya cəlb etmək;

– satira və epistolyar üslubun fəallaşmasını Azərbaycan gülüş mədəniyyəti kontekstində təhlil etmək;

–satirik şeirin bir əsrlik təkamülünü, həmçinin onun yeni mərhələsini, yəni XIX əsr satirik ədəbiyyatının özündən sonra yaratdığı ədəbi məktəbi və bu məktəbin nümayəndələrinin yaradıcılığını fəlsəfi dəlillər işığında təhlil etmək;

– "Əkinçi" qəzetində ədəbiyyat məsələlərinin qoyuluşunu tarixilik kontekstində dəyərləndirmək;

– bədii ədəbiyyatda satirik şeirin ideya poetik xüsusiyyətlərini müəyyənləşdirmək;

– Azərbaycan maarifçi realizmində satira probleminin qoyuluşunun əsas estetik prinsiplərini araşdırmaqdır.

**Tədqiqatın metodları.** Dissertasiyada sistemli yanaşma, analiz və sintez, induksiya və deduksiya, tarixilik və məntiqilik əsas götürülsə də, tədqiqatın əsas nəzəri-metodoloji əsaslarını satirik poeziya haqqında indiyədək əldə edilən elmi-nəzəri qənaətlər və tarixi-müqayisəli metod təşkil edir. Məhz bu səbəbdəndir ki, qarşıya qoyduğumuz problemin həllinə kompleks şəkildə yanaşılmış, mövzunun mahiyyəti ilə bağlı dünya, rus və Azərbaycan alimlərinin monoqrafiyalarına, nəzəri-metodoloji xarakterli ümumnəzəri

problem, prinsip və qənaətlərə istinad edilmiş, satirik fikrin inkişaf dinamikası göstərilmişdir.

Tədqiqat üsulu elmi materialların toplanaraq sistemləşdirilməsi, toplanmış materiallardan faydalanma, sistemli təhlil və şərhlər, problemə kompleks yanaşma, tarixilik prinsipi, ümumləşdirmələr aparılaraq elmi nəticələrin əldə olunması prinsiplərinə əsaslanmışdır.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

– Dünya və Azərbaycan ədəbiyyatşünaslığında nəzəriyyəçi alimlərin satira haqqında elmi-nəzəri aspektlərini bədii-estetik müstəvidə dəyərləndirilməsi;

– satiranın folklor qaynaqlarının araşdırılması və şifahi xalq ədəbiyyatındakı satirik şeirlərin pafosunun bədii-fəlsəfi təcəssümünün tədqiq edilməsi;

– A.A.Bakıxanov, Q.B.Zakir, M.F.Axundzadə, B.B.Şakir, M.B.Nadim, Cənubi Azərbaycan şairlərnin, S.Ə.Şirvani, İ.Qasir, M.Ə.Sabir yaradıcılığında satiranın fəlsəfi mahiyyətinin aşkarlanılması, satirik poeziyaya üz tutulmasının əsas səbələrinin müəyyənləşdirilməsi;

– XIX əsrdə "Əkinçi" qəzetində satirik üslubun formalaşmasının əsas amillərini həm ictimai-siyasi, həm də milli-mənəvi dəyərlər baxımından aydınlaşdırılması;

– XIX əsr satirik şeirinin dili, şairlərin bədii yaradıcılıq metodunun müəyyənləşdirilməsi;

– sənətkarın dil-üslub xüsusiyyətlərinin aydınlaşdırılması;

– XIX əsr satirasının Azərbaycan maarifçiliyi kontekstində dəyərləndirilməsi.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiya işinin elmi yeniliyi, hər şeydən öncə, mövzuya yanaşma və problemin qoyuluşu ilə bağlıdır. Bu dissertasiya XIX əsrdə Azərbaycan ədəbiyyatında satira və onun əsas tənqid hədəfləri problemini monoqrafik səviyyədə araşdıran ilk tədqiqat işidir.

İlk dəfə bu dissertasiyada XIX əsr Azərbaycan ədəbiyyatında satiranın təkamülü, əsas təmayülləri, topologiyası, poetikası məsələlərinin filoloji-ədəbiyyatşünaslıq aspektləri ilə ictimai-tarixi xarakteri bütövlükdə sistemli təhlilə cəlb edilmişdir.

Tədqiqatın elmi əhəmiyyətini şərtləndirən yeniliklərə aşağıdakıları aid etmək olar:

– dissertasiya işinin əsas yeniliyi ədəbiyyatşünaslıq elminin müasir nailiyyətlərinə əsaslanmaqla XIX əsr Azərbaycan satirik şeirinin təkamül prosesinin sistemli şəkildə tədqiqata cəlb edilməsidir;

– dissertasiya işində sosioloji təhlilin marksist metodologiyadan fərqli olaraq sinfi münasibətlər kontekstində deyil, ictimai-tarixi şərtlər kontekstində araşdırılmasıdır;

– satirik üslubun topologiyası ədəbi-müqayisəli yanaşmalar şəklində, müasir ədəbiyyatşünaslıq mövqeyindən diqqət mərkəzinə gətirilməsidir;

– dissertasiyada XIX əsrdə milli ədəbiyyatımızda satirik poeziyanın məhz realizmlə bağlı əlverişli inkişaf zəmini tapmasının tarixi-ictimai və milli-mədəni səbəblərinə estetik perspektiv nöqteyi-nəzərindən kompleks şəkildə nəzər salınmış, bu barədə nəzəri ədəbiyyatda irəli sürülən bir çox elmi tezislərə aydınlıq gətirilməsidir;

– Şərq didaktikasından, ilkin maarifçilikdən maarifçi realizmə, eləcə də maarifçi realizmdən tənqidi realizmə keçidin estetik hadisə kimi araşdırılmasıdır;

– həm şifahi, həm də yazılı ədəbiyyatda ictimai ədalətsizliklərə etiraz motivlərinin üzə çıxma səbəbləri və üsulları folklor materialları və XIX əsr şairlərinin yaradıcılıq nümunələri əsasında izlənilmiş, nəzəri təhlillər və elmi ümumiləşdirmələr aparılmışdır. Satiranın etiraz, fərdi tənqid, həcv nümunələrindən poetik sənət örnəklərinədək keçdiyi mərhələlərin hər birinə aydınlıq gətirilməsidir;

– intertekstual təhlil metodunun tətbiqi yazılı ədəbiyyatda aparıcı təmayülə çevrilmiş satiranın folklor ənənələrinin araşdırılması ilə yanaşı, satiranı milli yaddaş hadisəsi kimi tədqiq etməyə imkan verməsidir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqat Azərbaycan ədəbiyyatı tarixinin sistemli şəkildə öyrənilməsinin davamıdır. Belə ki, dissertasiyadan XIX əsrdə satirik poeziyanın tarixi inkişaf problemlərinin araşdırılmasında, tənqid hədəflərinin

öyrənilməsində istifadə oluna bilər.

İşin nəticələrindən Azərbaycan ədəbiyyatı tarixinə həsr olunmuş təqdiqatlarda nəzəri mənbə kimi, ali məktəblərinin filologiya fakültələrində tədris vəsaiti kimi, eləcə də orta məktəbin yuxarı siniflərində ədəbiyyat fənnindən yardımçı vəsait kimi istifadə oluna bilər. Araşdırmanın nəticələri müqayisəli ədəbiyyatşünaslıqla bağlı araşdırmalar aparan mütəxəssislər üçün də qaynaq rolunu oynaya bilər.

**İşin aprobasiyası və tətbiqi.** Tədqiqat işinin əsas müddəaları, elmi yenilik və nəticələri tezis və məqalələr şəklində Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının reyestrinə daxil olan elmi məcmuələrdə, respublika və beynəlxalq əhəmiyyətli konfrans və simpozium materiallarında əksini tapmışdır.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı:** Bakı Dövlət Universiteti.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya giriş (14 643 şərti işarə), dörd fəsil (birinci fəsil – 43 992, ikinci fəsil – 94424, üçüncü fəsil – 58 899, dördüncü fəsil – 52 377 şərti işarə), nəticə (4.618 şərti işarə) və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. İşin ümumi həcmi 268 953 şərti işarədir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **Giriş** hissəsində mövzunun aktuallığı, işlənmə dərəcəsi əsaslandırılır, tədqiqatın obyekti, predmeti, məqsəd və vəzifələri, metodları, müdafiəyə çıxarılan əsas müddəaları müəyyənləşdirilir, tədqiqatın elmi yeniliyi, nəzəri və praktiki əhəmiyyəti göstərilir, tədqiqat işinin aprobasiyası və tətbiqi, dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı, dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi və işarə ilə ümumi həcmi təqdim edilir.

Dissertasiyanın **"Satirik şeirin tarixi və məsələnin nəzəri qoyuluşu"** adlı I fəslində kinayə, tənqidi gülüş və satiranın tarixi inkişafına, onlarla bağlı elmi mülahizələrə nəzər yetirilir, fikir

bildirilir, həmçinin xarakterik xüsusiyyətləri sadalanır. Qeyd edilir ki, "*Satiranın təməli Avropada antik dövrdən başlayır. Bu, antik komediyalardan, Ezop təmsillərindən, Apuleyin "Qızıl eşşək" təmsil və lətifələrindən, parodiyalardan gəlir*"[16].

Fəslin **"Satiranın bədii ədəbiyyatda yeri ilə bağlı əsas nəzəri yanaşmalar"** adlanan birinci paraqrafda satiranın bədii ədəbiyyatda yeri ilə bağlı əsas nəzəri yanaşmalar şərh edilir. Satirada kinayənin rolu müəyyənləşir. Kinayə haqqında ədəbiyyatşünaslıqda mövcud olan elmi-nəzəri fikirlər göstərilir, münasibət bildirilir. A.Hacıyev yazır: "*Kinayə insana, hadisə və əhvalata tənəli, istehzalı və rişxəndli münasibətdir. Ancaq bu münasibət təmkinlə, sakit və soyuqqanlı ahənglə ifadə olunur. Elə bil tənqid edilən, lağa qoyulan adam təriflənir, onun mövqeyində dayanılır, əməlləri pislənilir*"[17].

Kinayəli gülüş əsil sənət, ədəbiyyatda həmişə həqiqət, ədalət yolunda mübarizə aparmışdır. Bu gülüş müharibə, mübarizə, münaqişə vaxtında zorakılığın tüğyanında hakimləri sarsıdan, dəhşətə gətirən ən kəskin bir cavab olmuşdur.

Dissertasiyada kinayə gülüşün bir növü kimi, həm də satirik gülüşün əsasında dayanan, onun yaranmasında zəmin rolunda çıxış edən bir üsul kimi dəyərləndirilir, müvafiq ədəbiyyatlara istinad edilməklə əsaslandırılır.

**"Satirik şeirin təkamül təcrübəsi"** adlandırılan ikinci paraqrafda satirik şeirin təkamül təcrübəsi diqqətdən keçirilir, gülüş, xüsusilə də tənqidi gülüş barədə mövcud nəzəri ədəbiyyatlardakı elmi mülahizələr təqdim edilərək fikir bildirilir. Göstərilir ki, tənqidi gülüş ədəbiyyatda satira qədər qədimdir. Gülüş komikliyin insanda doğurduğu haldır. Ona görə də ədəbiyyat və incəsənətdə əsas yer tutur. Satira ilə sıx bağlı olan gülüş həm açıq, həm də örtülü ola bilər. A.Luk yazır: "*Bütün gülməli olanlar heç də həmişə komik olmur, amma komik olanların hamısı gülməli olur. Digər bir formada ifadə etsək, komizmdə gülüş yaradan əksər xüsusiyyətlərlə bərabər, başqa bir bötövləşdirici xüsusiyyət də özünü göstərir ki, o da mənalılıq*

[16] Sultanlı, Ə. Azərbaycan dramaturgiyasının inkişaf tarixindən / Ə.Sultanlı. – Bakı: Azərnəşr, – 1964. – s. 17

[17] Hacıyev, A. Ədəbiyyatşünaslığın əsasları / A.Hacıyev. – Bakı: ADPU, – 2009. –s. 197

*hesab edilir*"[18]. Y.Borevin fikrincə, "*Gülüş və gülünclük komiklikdən genişdir. Onlar estetikaya daxil olmayan hadisələri də əhatə edir. Gülməli həmişə komik olmur. Komiklik gülüşün gözəl bacısıdır. Komiklik yüksəklik doğurur*"[19]. Bizə belə gəlir ki, burada komizmlə komikliyi eyniləşdirmə hiss olunur. Gülüş ədəbi silah kimi komik ziddiyyətlərin məcmusudur, onun təbiətində ziddiyyətlərin mövcudluğunu təsdiq edənlər heç də yanılımırlar. Əslində, gülünclük özü də ziddiyyətləri kəskinləşdirən və onların təbiətini açan vəziyyətlər yaradır.

Tənqidi gülüş öz təbiətinə görə demokratikdir. O, aşağıdan yuxarıya tabeliyin, rütbələr önündə sitayişin hər cür növünün düşmənidir. O, hüquq bərabərsizliyinin, zorakılığın, istibdadın bütün formalarına qənim kəsilən bir qüvvədir.

Fəslin **"Azərbaycan xalq ədəbiyyatında satiranın yeri"** adlanan üçüncü paraqrafında Azərbaycan xalq ədəbiyyatında satiranın yeri müəyyənləşdirilir, ədəbiyyatımızda bu üslubun inkişafinda şifahi xalq ədəbiyyatının müstəsna rolu haqqında məlumat verilir və faktik materiallar əsasında onun özəllikləri diqqətə çatdırılır. F.Qasımzadə yazır: *"XIX əsrin birinci yarısında Azərbaycan ədəbiyyatında təşəkkül tapan satirik ədəbi cərəyan öz mənşəyi etibarı ilə şifahi xalq yaradıcılığı və klassik ədəbiyyatla bağlıdır. Şifahi xalq yaradıcılığının zəngin xəzinəsində ayrı-ayrı bayatı və aşıq qoşmalarında istehza və kinayə ilə dolu satirik gülüşlərə tez-tez rast gəldiyimiz kimi, yazılı ədəbiyyatda, xüsusən böyük klassiklərin əsərlərində də bəzən feodal zülmü əleyhinə yazılan satirik parçalara təsadüf etmək olur*"[20].

Xalqımız satiraya, yumora əvəzedilməz tənqidi, ifşaedici, islahedici vasitə kimi yanaşıb. Bu mövqe xalq yaradıcılığı nümunələrinin bir çoxunda özünü göstərməkdədir. Belə ki, atalar sözü və məsəllər, bayatılar, meydan tamaşaları, lətifə və nağıllar, novruz mərasimlərindəki Kosa oyunları, qaravəllilər və s. nümunələr

---

[18] Лук, А.Н. О чувстве юмора и остроумии / А.Н.Лук. – Москва: Искусство, – 1968. – с. 62

[19] Борев, Ю. Комическое и художественные средство его отражения / Ю.Борев. – Москва: Академии Наук СССР, – 1958. – с. 28

[20] Qasımzadə, F. XIX əsr Azərbaycan ədəbiyyatı tarixi. Ali məktəblər üçün dərslik. / F.Qasımzadə. – Bakı: Elm və təhsil, – 2017. – s. 198

satirik düşüncə üstündə qurulur. M.İbrahimov yazır: *"Cəmiyyət həyatında, xalqın ürəyində sönməz bir qəzəb parlayırdı. Fürsət düşən kimi bu qəzəb özünü göstərirdi: onun təzahür formaları çox müxtəlif idi: xalq üsyanları və qaçaqçılıq hərəkatı ilə yanaşı, xalqın istehza dolu lətifələrində, zülmkar bəyləri, xanları, koxaları, çar çinovniklərini, molla və seyidləri ələ salan, onların xain, pozğun təbiətini ifşa edən həcvlərdə, atalar sözü və məsəllərində meydana çıxırdı"*[21].

XIX əsr şairləri, dövrün yaradıcı ziyalıları ətrafda cərəyan edən neqativ hadisələrlə, yaranmış vəziyyətlə barışmır, mübarizəni satirada axtarırdılar.

Bu dövrdə satirik şeir yaradıcılığında xalq ədəbiyyatına müraciət edən yüzlərlə ada təsadüf olunur. Q.B.Zakir, A.A.Bakıxanov, M.Ş.Vazeh, S.Ə.Şirvani və başqa şairlər satirik şeirlərində atalar sözlərindən, əfsanə və rəvayətlərdən, nağıllardan, lətifələrdən istifadə etmişlər.

Folklorun ayrılmaz tərkib hissəsi olan nağıllarda da satirik düşüncəyə rast gəlinsə də, dramatik növün janrı olan xalq oyunları və tamaşalarında satirik gülüş daha aparıcı olub.

Bu kimi məsələlər dissertasiyada nümunələr verilməklə daha geniş şəkildə əksini tapır.

Dissertasiyanın **"XIX əsr Azərbaycan ədəbiyyatının təkamülündə satiranın əsas təmayülləri"** adlanan II fəsli də üç paraqrafda sistemləşdirilir. Birinci paraqraf **"Şərq didaktikasından maarifçiliyə doğru"** adlanır. Burada A.A.Bakıxanov, Q.B.Zakir və M.F.Axundzadə satirasının tənqid hədəfləri onların əsərlərindən konkret nümunələr verilməklə şərh olunur. Bununla da didaktikadan maarifçiliyə keçid prosesi əsaslandırılır. A.A.Bakıxanov barədə vurğulanır ki, o öz şəxsiyyətində və yaradıcılığında həm orta əsrləri yaşadan, həm də yeni dövrü – XIX əsri yaradan bənzərsiz bir mütəfəkkirdir. O, klassik keçmişə, özündən əvvəlki Şərq – müsəlman mədəniyyətinə, poetik və elmi ənənələrinə möhkəm tellərlə bağlı idi. Eyni zamanda öz şəxsiyyətində Şərqi Qərblə, Avropanı Asiya ilə bir yerdə təsvir edən, ənənəvi Şərq dəyərlərini yeni, müasir Qərb

---

[21] İbrahimov, M. Xəlqilik və realizm cəbhəsindən / M.İbrahimov. – Bakı: Azərnəşr, – 1961. – s. 11

mövqeyindən qiymətləndirən çağdaş düşüncəli şair, nasir və alimdir. A.A.Bakıxanov şeirində mənəvi şikəstliyə, azğınlığa güzəşt yoxdur. Maraqlı cəhət həm də ondadır ki, şairin satirik şeirlərində həyati misallar ardıcıllıqla, süjet əsasında təqdim olunmaqla satirik ifşanın effekti gücləndirilir:

*"Soxulur önünə çıxsa ev, bostan.*
*Tapdayıb edibdir yerlə yeksan*
*Dindirsən deyir ki, qorxan deyiləm.*
*Yəni ki, camışam, insan deyiləm*"[22].

A.A.Bakıxanovun "Şahın bir şəxsi döydürməsi", "Xudpəsənd əmir və tənqidçi", "Kəndlinin şaha şikayəti" mənzum hekayələrində xalqın ağrı-acıları, hüquqsuzluqları, ədalətsizliklərə etirazı öz əksini tapmışdır.

Bir sözlə, Qüdsi cəmiyyətdə və ayrı-ayrı fərdlərdə müşahidə etdiyi mənəvi-əxlaqi naqisliyə, geriliyə qarşı çıxır, "zəmanədən min cəfa görən" qəhrəmanı acgözlük, tamahkarlıq, zülmkarlıq, xainlik, lovğalıq, təkəbbür kimi sifətləri pisləyərək müasirlərini mənəvi ucalığa, əxlaqi saflığa çağırır. Bu kimi məsələlər dissertasiyada konkret əsərlərdən nümunələr verilməklə şərh olunur.

Burada həmçinin Q.B.Zakirin hekayə və təmsilləri tədqiqata cəlb edilərək fikir bildirilir. K.Məmmədov Q.B.Zakirin mənzum hekayə və təmsillərinin xüsusiyyətini belə izah edir. *"Məlumdur ki, Nizami də öz poemalarında, xüsusən "Sirlər xəzinəsi" əsərində nəsihətamiz fikirlər ifadə etmişdir. Lakin Nizami əvvəl fikrini şərh edib, sonra həmin fikri doğruldan hekayəni söyləyir. Zakirdə isə əksinədir; əvvəl hekayəni söyləyib, sonra nəticə çıxarır"*[23]. Deməli, N.Gəncəvidən fərqli olaraq Q.B.Zakirin hekayələrinin ana xəttini satirik üslub təşkil edirdi.

Bu paraqrafda M.F.Axundzadənin şeir yaradıcılığından, xüsusilə də onun satirik məziyyətlərindən də danışılır. Qeyd olunur ki, onun şeir yaradıcılığında zamanın tənqidi, dünyanın gedişatından

---

[22] Bakıxanov, A.A. Seçilmiş əsərləri / A.A.Bakıxanov. – Bakı: Avrasiya Press, – 2005, – s. 229
[23] Məmmədov, K. Qasımbəy Zakir / K.Məmmədov. – Bakı: Elm, – 1957. – s. 76

narazılıq motivləri, yumoristik-satirik səciyyə daşıyan poetik nümunələrin olması onu bu yöndən araşdırmağa əsas verir. Ədibin "Zəmanədən şikayət", "A.S.Puşkinin ölümünə Şərq poeması", eləcə də "Yeni əlifba haqqında mənzumə" adlı nəzm əsərləri X.Şirvaninin tənqidi şeirlərini xatırladır. Belə ədəbi nümunələri tam olaraq satira adlandırmaq mümkün olmasa da, şairin dövrə, zəmanəyə, ətrafda cərəyan edən ictimai hadisələrə münasibətini öyrənmək baxımından əhəmiyyətlidir. *"Odur ki, M.Fətəlinin yazılarında satira və satirik ədəbiyyat problemi bütün keyfiyyət və xüsusiyyətləri ilə öz şərhini tapmamışdır. Əlbəttə, onun satiraya dair dərin və hərtərəfli məlumatı olmadığını söyləmək olmaz. Çünki M.Fətəlinin Mirzə Məhəmməd Qaracadağiyə yazdığı məktubundan aydın olur ki, satira, onun mahiyyəti və vəzifələri, spesifik xüsusiyyətləri, ədəbi-bədii fikrin tarixi inkişafındakı rolu, Avropa satirik ədəbiyyatının inkişaf tarixi, Avropa yazıçı və publisiistlərinin satira barədə görüşləri haqqında mükəmməl təsəvvürü olmuşdur"*[24].

M.F.Axundzadə yazılarında satirik ədəbiyyatı qızğın müdafiə edərək göstəriridi ki, xalqın mənafeyi, gələcəyi, mədəni tərəqqisi haqqında düşünən və bu yolda mübarizə aparan yazıçı, mütləq öz əsərlərini satirik üslubda yazmalı, gülüş yolu ilə nadanlığa, gerilik və ictimai ədalətsizliyə qarşı etiraz elan etməlidir. Çünki M.F.Axundzadə yaxşı dərk edirdi ki, nəsihət və moizə yolu ilə insanlara təsir etmək qeyri mümkündür. Y.Qarayev yazırdı: "*Konkret-tarixi məqamla şərtlənən yanlışlara yol versə də, öz radikal islahatlarına mane olan hər şeyi Axundov görülməmiş cəsarətlə, ifrat inqilabi bir maksimalizmlə rədd edir: dini ehkamları, "güllü ədyanı" puç elan edir və maarifçi realist fikrin əsasını qoyur*"[25].

Onun "Molla Əli", "Hekayəti-Seyid Ələm Səlyani", "Həcvi-Əbdürrəsul xan" adlı satiraları, "Şahmat oyunu haqqında" şeiri və üç mənzum hekayəsi haqqında da məlumat verilərək didaktikadan maarifə keçid prosesi nümunələrlə əsaslandırılır.

Fəslin **"İctimai satira yeni tipli bədii hadisə kimi"** adlanan ikinci paraqrafında ictimai satira yeni tipli bədii hadisə kimi

---

[24] Kamranqızı, L. Mirzə Fətəli Axundzadə: xalq ədəbiyyatından realizmə qədər / L.Kamranqızı. – Bakı: Elm, – 2012. – s. 240

[25] Qarayev, Y. Tarix: Yaxından və uzaqdan / Y.Qarayev. – Bakı: Sabah, – 1996. – s. 223

dəyərləndirilir. Bu isə özünü B.B.Şakir, M.B.Nadim, Q.B.Zakir, Q.Vənəndi, F.Ordubadi, M.M.Şükuhi, Ə.Raci, M.Xalxali, M.Möcüz, Ə.Nəbati kimi sənətkarların yaradıcılığında aydın göstərir. Buna görə də burada həmin şairlərin şeirlərinə nəzər salınır, bu şeirlər ictimai satira nümunələri kimi təqdim edilir və onların ədəbiyyat tarixində yeni bir bədii hadisə olduğu diqqətə çatdırılır. Əvvəlcə, B.B.Şakir, M.B.Nadim və Q.B.Zakir haqqında danışılaraq, onların yaradıcılığından bəhs olunur. Vurğulanır ki, XIX əsrdə baş verən ictimai hadisələri, eləcə də dövrün satirik ədəbiyyatını daha düzgün, daha ətraflı öyrənmək üçün B.Şakir irsi əvəzsiz xəzinədir. M.B.Nadimin bizə gəlib çatan bədii irsi sübut edir ki, o, çox qüdrətli satirik olmuş, zamanına və ictimai mühitinə ayıq bir şair nəzərləri ilə baxmağı bacarmışdır. Q.B.Zakir satirik şeirləri ilə də yeni bir məktəbin ədəbi cərəyanın bünövrəsini qoymuşdur.

Azərbaycan ədəbiyyatı tarixində satiranın yaranması və inkişafında, eləcə də onun ayrılmaz tərkib hissəsi olub böyük tərbiyəvi və siyasi əhəmiyyətə malik yumor və etiraz hisslərinin formalaşmasında Q.B.Zakirin rolu əvəzsizdir. Ona ədəbiyyat tarixində şərəfli mövqe qazandıran, onu realist sənətkar kimi tanıdan daha çox satiralarıdır. *"O, islam etiqadına möhkəm inanan, lakin dindən, Qurandan soyğunçuluq vasitəsi kimi istifadə edənlərə amansız olan bir şairdir"*[26]. Onun satiralarının tənqid hədəfləri və mövzusu müxtəlifdir; 1) Çar məmurlarının rüşvətxorluğunun tənqidi; 2) Yerli bəy, xan mülkədarların tənqidi; 3) Fırıldaqçı din xadimlərinin, bürokrat, əxlaqsız ruhanilərin tənqidi. Şairin tənqidi-satirik şeirlərini isə aşağıdakı şəkildə təqdim etmək mümkündür. 1) Tənqidi-satirik şeirlər; 2) Zəmanədən şikayət edən ictimai məzmunlu şeirlər; 3) Kəskin həcvlər.

Qənaətimizə görə, Q.B.Zakirin həcvləri sırf həcv mahiyyəti daşımır, onlar satiraya daha yaxın olmaqla bərabər, konkret bir şəxsi: bəyi, xanı bəzəməklə kifayətlənmir, həm də ictimai həyatın yaralarını açır. Bir sözlə, Q.B.Zakir ictimai həyatın və məişətin bir çox yaralarını, istər şəxsən tanıdığı, istərsə də haqqında eşitdiyi fitnə-fəsad törədən adamları, dövrünün yaramazlıqlarını, sinifli cəmiyyətin bütün eyib, nöqsan və bəlalarını cəmləşdirib satira atəşinə tutmuşdur.

---

[26] Məmmədov, K. Qasımbəy Zakir / K.Məmmədov. – Bakı: Elm, – 1957. – s. 90

Daha sonra Naxçıvanda Q.Vənəndi, F.Ordubadi, Cənubi Azərbaycanda M.M.Şükuhi, Ə.Raci, M.Xalxali, M.Möcüz, Ə.Nəbati kimi şairlərin tənqidi-realist şeirləri satirik yöndən təhlil edilir. Onların şeirləri ictimai satiranın dəyərli nümunələri kimi səciyyələndirilir, konkret nümunələr verilməklə şərh olunur.

Fəslin üçüncü paraqrafı **"Satira və epistolyar üslubun fəallaşması"** adlanır. Qeyd olunur ki, XIX əsdən ədəbiyyatda epistolyar üslub fəal şəkildə istifadə olunmağa başlayır. Şairlər artıq ədəbi priyom kimi epistolyar üslubdan istifadə etməyə başlayır, bəzən hər hansı ictimai və ya siyasi hadisəni şərh etmək, eyham vurmaq, tənqidi mövqelərini sərgiləmək üçün ya ən yaxın qələm dostlarına və yaxud da düşmənlərinə mənzum məktublar yazırdılar. Bu məktublar adi gündəlik məktublardan fərqli olaraq ədəbi, çox zaman isə ictimai-siyasi məzmun daşıyırdı.

Burada Q.B.Zakir, M.F.Axundzadə, İ.Qasir və S.Ə.Şirvani kimi sənətkarların məktublaşmaları barədə məlumat verilir və onların məktublarının satirik mahiyyəti və ictimai-tənqidi məzmunu aydınlaşır.

Q.B.Zakir satiralarının çoxunu mənzum məktub şəklində yazmışdır. Bu məktubların hər biri bir poema qədər zəngin materiala malikdir. Şairin məşhur "Vilayətin məğşuşluğu haqqında" satirasında bir çox məqamlar satirik dillə ifşa olunmuşdur. Şeir epistolyar üslubda M.F.Axundzadəyə məktub şəklində yazılıb. Şeir keçmişdə yazılan ənənəvi məktublar kimi "Bizim tərəflərin əhvalını xəbər almaq istəsən" sorğusu ilə başlanır. Şair qısa girişdən sonra Qarabağda quldurluq, oğurluq, özbaşınalıq kimi halların baş alıb getdiyini və bunun müqabilində heç bir tədbir görülmədiyini öz şəxsi kədəri kimi dostuna çatdırır. Mənzumənin ilk altı bəndində o, 17 kəndin adını çəkir və bu kəndlərdə baş verən özbaşınalıqları bir-bir sadalayır. Əhalinin son dərəcə çıxılmaz vəziyyətə düşərək yüz illərlə yaşadıqları ata baba yurdlarını tərk etmək məcburiyyətində qaldıqlarını ürək ağrısı ilə qələmə alır.

Q.B.Zakirin M.F.Axundzadəyə mənzum məktub şəklində yazdığı bu şeirin sonunda şairin həm də tədbirli olduğu görünür:

*“Gərçi vilayətdə çox idi əhval,*
*Müyəssər olmadı şərh edim əhlal,*
*Bir parasın yazıb eylədim irsal,*
*Bir şərt ilə nə diş bilsin, nə dodaq”*[27].

M.F.Axundzadənin də şeirlərinin bir neçəsi mənzum məktub hesab edilir. Onun dostları çox idi və onlarla məktublaşırdı. M.F.Axundzadənin Qarabağ qəzasında ən çox əlaqə saxladığı adamlar arasında xalqın çox sevdiyi şair Q.B.Zakir və yerli bəylərdən olan Cəfərqulu xan xüsusi yer tuturdu. O, Q.B.Zakirə iki, Cəfərqulu xana isə üç mənzum məktub yazmışdır.

Dissertasiyada adları çəkilən sənətkarların satirik ruhda yazdığı əsərləri, xüsusilə də məktubları və onlardakı konkret tənqid hədəfləri nümunələrlə əsaslandırılır, belə nümunələr epistolyar üslubu formalaşdıran vasitələr kimi dəyərləndirilir.

Dissertasiyanın III fəsli **“Milli ideologiya dəyərlərinin formalaşmasında satiranın yeri”** adlanır. Bu fəslin **“Satirik şeir iki dövrün yolayrıcında”** adlanan birinci paraqrafında Seyid Əzim Şirvani və Mirzə İsmayıl Qasir satiralarının tənqid hədəfləri təhlil olunur. Burada əvvəlcə S.Ə.Şirvaninin satiraları tədqiqata cəlb edilir, nümunələr göstərilməklə elmi şəkildə əsaslandırılır. Q.B.Zakirin satiraları məktəbsiz, mətbuatsız bir cəmiyyətin problemləri, qayğıları ilə bağlı idisə, S.Ə.Şirvani satiraları tamam başqa bir ictimai-ədəbi mühitin, yeni tarixi şəraitin məhsulu idi. Elə məhz buna görə də S.Ə.Şirvaninin fəaliyyəti ilə Azərbaycan poeziyasında satirik ədəbi cərəyan yeni bir mərhələyə çatır.

S.Ə.Şirvanini satira yazmağa təhrik edən amillər həm şəxsi həyatında yaşadığı məşəqqətli hallar, həm də ictmai mühitdə gördüyü ədalətsizliklər idi. “Şikayət” adlı şeirində şair ailəsinin ehtiyac içində olduğunu, çörəksiz qaldığını göstərməklə bərabər evini qəbrə bənzədir, ailəsini diri ikən ölü adlandırır. S.Ə.Şirvani insanların belə vəziyyətdə yaşamasının səbəbini dövlətin zəifliyində görürdü. Bu vəziyyətlə bağlı S.Ə.Şirvaninin “Ziya” və “Kəşkül” qəzetlərində çap etdirdiyi, lakin çar senzurasına məruz qalan iki məqaləsi vardır.

[27]Zakir, Q.B. Seçilmiş əsərləri / Q.B.Zakir, tərt. ed. K.Məmmədov. – Bakı: Avrasiya-Press, – 2005. – s. 22

S.Hüseynov bu məqalələr haqqında ətraflı məlumat verərək yazır: "*Ziya"dakı məqalədə Şirvani haqqında danışdığımız məsələlərlə bağlı höküməti xəbərdar edirdisə, "Kəşkül"dəki məqalədə bilavasitə hökümətin özünü tənqid edirdi*"[28]. Haqsızlıqları görən şair onu düşündürən mövzuları qələmə almaq üçün lirik növün müxtəlif janrlarından istifadə etməyi zəruri sayırdı. O artıq başa düşürdü ki, yazılması vacib olan mətləblər qəzəlin məhdud çərçivəsinə sığmır.

Şairin kəskin satiralarından biri olan "Allaha rüşvət"də quraqlıqdan təngə gəlmiş elmsiz, avam camaatın göydən yağış yağdırmaq üçün Tanrıya rüşvət vermək istəməsindən bəhs olunur.

*"Dedilər: - Ol xudayi-biminnət*
*Harda görmüşdü min tümən rüşvət?*
*Pulu çox gördü, eylədi ifrat,*
*Deyəsən ki, atıbdı həbbi – nişat"*[29].

Bu dövrün satirik poeziyası həm də təhsilin, maariflənmənin problem və qayğıları ilə yüklənmişdi. Seyid Əzimin "Elmsiz alim", "Alim oğul ilə avam ata", "Tələbənin hadisəsi", "Müctəhidin təhsildən qayıtması", "Köhnə elmdən şikayət" əsərlərində birbaşa elm, təhsil məsələləri önə çəkilir, dövrün ictimai nöqsanları həmin mövqelərdən tənqid olunurdu.

Seyid Əzim vaizlərin məşiət məsələləri ilə əlaqədar irəli sürdükləri fikirlərlə də maraqlanmışdır. O, "Vaizin hadisəsi" adı altında yazdığı bir sıra satirik şeirlərində onları məişət pozğunları kimi damğalamışdır. "Münəccimlər yalançıdır", "Bəlx qazısı və xarrat" adlı satiralarında da eyni məsələyə toxunmuş, münəccim və qaziləri də zahidlər kimi rüsvay etmişdir.

S.Ə.Şirvani satirasının ən acı gülüş hədəfi mollalardır. Şair dini dinara satan yalançı şəriət xadimlərinin mənəvi-əxlaqi eybəcərliklərini ən çox özünün yaratdığı molla surətlərinin timsalında ümumiləşdirmişdir. "Köpəyə ehsan", "Molla və çoban

---

[28] Hüseynov, S. Seyid Əzim Şirvaninin yaradıcılıq yolu / S.Hüseynov. – Bakı: Elm, – 1977. – 218 s.
[29] Şirvani, S.Ə. Seçilmiş əsərləri: [3 cilddə] / S.Ə.Şirvani. – Bakı: Avrasiya Press, – c. 3. – 2005. – s. 441

əhvalatı” kimi əsərlərində isə Seyid Əzim yalançı, ikiüzlü, müftəxor mollaların daxili aləmini, onların gülünc, eybəcər simasını yaddaqalan əhvalat və hadisələr fonunda işıqlandırır.

S.Ə.Şirvaninin həcvlərində ictimai məzmundan daha çox fərdi münasibətlər qələmə alınsa da, şair hər bir şeirində yaratdığı obrazın hərəkətləri fonunda satirik tipin xarakterini açmağa müvəffəq olur.

Şair təmsillərində də avamlıq, lovğalıq və bədxahlığı tənqid atəşinə tutur. F.Kərimova “Azərbaycan təmsili” adlı tədqiqatında S.Ə.Şirvaninin təmsilləri barəsində yazır: *“Satiranın bacarıqla təmsillərinin məzmununa hopdurulması və onunla birləşdirilməsi Şirvani təbindəki satirik ruhun özü ilə bağlı idi”*[30]. *“Şirvani Axundovdan sonra ədəbiyyat tariximizdə istedadlı lirik, görkəmli bir maarifçi satirik şair kimi yüksəlmişdir”*[31].

Azərbaycan poeziyasında ilk dəfə kapitalizm məsələlərindən bəhs edən, ona qarşı çıxan şair İ.Qasirdir. O, şeirlərində milli ənənələri sıxışdıran kapitalist münasibətləri, onun cəmiyyətdə yaratdığı fəsadları tənqid edir. Şairin yaradıcılığında gerilik, cəhalət və köhnə fikirlilik tənqid olunur, mütərəqqi fikirlər, maarifə çağırış və yenilik uğrunda mübarizə təbliğ edilirdi.

“Anlamadım” şeirində nadanlıq, cəhalət, pula hərislik tənqid olunur, maarifə, elmə, biliyə, savada üstünlük verilir. Bu halda cəmiyyət ədalətsizlikdən, köləlikdən qurtular və nicat yolu tapa bilər. Belə fikirlər, demək olar ki, şairin əksər satirik şeir nümunələrində qırmızı xətt kimi aydın görünür.

Azərbaycan ədəbiyyatının XIX əsr mərhələsində İ.Qasir ilk dəfə qadın hüquqsuzluğunu satiralarında geniş şəkildə bədiiləşdirən sənətkarlardan biri olmuşdur. Belə ki, o, ilk dəfə Azərbaycan qadınlarının taleyini müşahidə edən, onların ağrı-acılarını duyan bir sənətkar kimi onlara ədalətsiz olanları və bütövlükdə bu ədalətsizliyin əsasında duran ictimai bəlaları tənqid etmişdir.

Fəslin ikinci paraqrafı **“Əkinçi” qəzetində ədəbiyyat məsələlərinin qoyuluşu: həcv yaradıcılığının tənqidi”** adlanır. Burada qeyd olunur ki, “Əkinçi” Azərbaycan mədəniyyəti tarixində

---

[30] Kərimova, F. Azərbaycan təmsili / F.Kərimova. – Gəncə: Təhsil, – 2003. – s. 98

[31] Heyət, C. Azərbaycan ədəbiyyatına bir baxış / C.Heyət. – Bakı: Yazıçı, – 1993. – s. 164.

əlamətdar hadisə idi. O, xalq kütlələrinin inkişafına, tərəqqisinə təkan vermiş, xalqın mədəni yüksəliş yoluna çıxmasında mühüm rol oynamışdır. Qəzetin sütunlarında ədəbiyyat məsələləri də böyük yer tuturdu. "Əkinçi"də iştirak edən yazıçılar, ziyalılar realist ədəbiyyatın inkişafına xüsusi fikir verirdilər. Bunu qəzetdə çap olunan elmi-publisistik və tənqidi məqalələrdə, bədii parçalarda aydın görmək mümkündür. "*O, bədii sözə böyük ictimai əhəmiyyət verərək sözdən diqqət və məharətlə istifadə etmək lüzumunu göstərirdi. O, eyni zamanda, xalqa zərərli fikir və duyğular aşılamağa, dini fanatizmi yaymağa çalışan şairləri, habelə məddahları, həcvçiləri həmişə pisləyərək, onları xalq üçün min cür kələk və hiylələr quran "ləşgəri-şeytan" deyə damğalayırdı*"[32].

S.Ə.Şirvaninin "Əkinçi"də çap olunan şeirləri Azərbaycan poeziyasında yeni bir hadisə kimi səsləndi. Şair həmin əsərlərilə "Əkinçi qəzetinin realist poeziya sahəsində yeritdiyi xətti-hərəkəti müdafiə etməklə yanaşı, köhnəpərəst şairlərin şeirə mürtəce münasibətini bir daha ifşa etdi.

Bir sıra ciddi ədəbiyyat məsələlərinin həll edilməsindəki ardıcıllığı və realist ədəbiyyat uğrunda apardığı mübarizə ilə "Əkinçi" qəzeti o zamankı poeziyaya yeni keyfiyyətlər, qabaqcıl ideyalar gətirmiş, özündən sonra yaranan və inkişaf edən realist Azərbaycan ədəbiyyatına, tənqid və publisistikasına da təsir göstərmişdir.

Burada həmçinin H.Zərdabinin fəaliyyətindən, onun aşıq və xalq mahnılarına, şeir və nəğmələrə, atalar məsəllərinə xüsusi əhəmiyyət verməsindən, xalqımızın mədəni inkişafında onların mühüm rolunu qeyd etməsindən və həcv yaradıcılığına münasibətindən də bəhs edilir. Vurğulanır ki, H.Zərdabi dövrünün şairlərini məzəmmət edərək, mənasız şeirlərdən əl çəkib xalq həyatını əks etdirən şeirlər yazmağı onlardan tələb edirdi.

Fəslin üçüncü paraqrafı **"Satirik şeirin bir əsrlik təkamülünün yeni mərhələsi: təndiqi realizmə keçid"** adlanır. Satirada tənqidi realizmə keçid Mirzə Ələkbər Sabir yaradıcılığında aydın göründüyü nəzərə alınaraq şairin satirik şeirlərinin tənqid

[32] Ələkbərova, Ə. Zərdabi "Ədəbiyyat qəzeti"nin səhifələrində / Ə.Ələkbərova. – Bakı: Mütərcim, – 2020. – s. 43

hədəfləri geniş araşdırmaya cəlb olunur. Göstərilir ki, M.Ə.Sabir satiraya inqilabi məzmun verərək, onu yüksək mərhələyə qaldırdı və poeziyamızda yeni bir məktəbin əsasını qoydu.

Qeyd edək ki, M.Ə.Sabir şeir yaradıcılığında təkcə məzmun yeniliyi etməmişdir, həm də mövcud formalara yaradıcı yanaşaraq müəyyən dəyişikliyə nail olmuş, bəzi hallarda isə tam yeni formalarda mahiyyəti əks etdirməyi bacarmışdır. Bununla da Azərbaycan satirik poeziyasını forma baxımdan da zənginləşdirmişdir. Məsələn, şairin tipi öz danışığı, dili ilə ifşa etmək üsulu daha çox diqqət çəkir.

Onun "Bir məclisdə on iki kişinin söhbəti" başlıqlı satirası maraq doğurur. Ə.Mirəhmədov bu satira barədə yazır: "*Güman etmək olar ki, C.Məmmədqluzadənin "Molla Nəsrəddin"dəki şeirlərinin Sabirin "Həyat"dakı şeiri ilə həm ideya istiqaməti, satira hədəfi, həm də üslub və ifadə cəhətindən səsləşməsi Sabirdə başladığı işin faydalı, münasib olduğu barədə qənaəti möhkəmləndirmiş, onu daha da ürəkləndirmişdir*"[33].

M.Ə.Sabir yazdıqlarını cəmiyyətin ən ağır problemlərinə – yaralarına həsr etmişdir. Bunlardan ən başlıcası isə qadın və onların hüquqlarının tapdalanması, erkən nikahlar və bu kimi bir çox məsələlər idi. Ümumilikdə, Sabirin satiralarını mövzu etibarilə belə qruplaşdırmaq olar. 1) Xürafatın, savadsız din xadimlərinin tənqidi; 2) Qadın hüqusuzluğunun tənqidi; 3) Cəhalətin, savadsızlığın tənqidi; 4) İctimai ədalətsizliyin tənqidi; 5) Vətənin istiqbalını təhlükədə qoyanların tənqidi.

M.Ə.Sabirə görə qadın müqəddəs varlıq, yaradan, yaşadan və qoruyandır. Şairin dövründə azyaşlı qızların qoca kişilərə ərə verilməsi, əslində, bədbəxt edilməsi cahilliyin ən yüksək pilləsi idi.

*"Xandostu, amandır, qoyma gəldi!*
*Didarı yamandı, qoyma gəldi!*"[34].

---

[33] Mirəhmədov, Ə. Azərbaycan "Molla Nəsrəddin"i / Ə.Mirəhmədov. – Bakı: Yazıçı, – 1980. – s. 360

[34] Sabir, M.Ə. Hophopnamə: [2 cilddə] / M.Ə.Sabir. Tərt. ed. K.Məmmədov M.Məmmədov. – Bakı: Şərq-Qərb, – c. 1. – 2004. – s. 182

Dissertasiyada şairin əksər satiraları satirik ədəbiyyatın şah əsərləri kimi təhlil olunur, fikir bildirilir.

Qeyd etmək istədiyimiz faktlardan biri də budur ki, M.Ə.Sabirin satiralarının yazılma tarixi mətbuatda çap olunma tarixi ilə eyniləşdirilir. Fikrimizcə, M.Ə.Sabirin satiraları yazılma tarixi XIX əsrin sonlarına təsadüf edir. Ancaq XIX əsrdə mətbuat orqanları o qədər də yayğın olmadığından M.Ə.Sabir satiraları XX əsrdən etibarən çap olunmağa başlamışdır. M.Ə.Sabirin satirik yaradıcılığına XIX əsrdə baş verən mövcud hadisələr, situasiyalar təsir etmiş, şairin məhz güclü satirik kimi formalaşmasına zəmin yaratmışdır.

Dissertasiyanın dördüncü fəsli "**XIX əsr Azərbaycan satirik şeirinin poetikası"** adlanır. Bu fəsil üç paraqrafda sistemləşdirilir. Birinci paraqraf **"Satirik şeirin dili və üslubu"** adlanır. Burada satirik şeirin dili və üslubu tədqiq edilir. XIX əsr şairləri öz yaradıcılıqlarında poetik fikrin ifadəsi üçün müxtəlif imkanlardan və üslublardan məharətlə istifadə etmişlər. Onların yaratdığı satirik şeirlərin dili sadə olmaqla yanaşı, həm də Şərq poetik ənənlərindən qaynaqlanan, pafoslu sözlərlə, frazeoloji birləşmələrlə zəngindir.

XIX əsr şairləri satirik şeirlərində realizm metodundan istifadə ediblər. Biz bu metodu tənqidi realizm də adlandırırıq. Ona görə ki, həmin şeirlərdə kəskin tənqid, kinayə ilə yanaşı ifşanın yüksək forması olan sarkazm da var. Bu da fərdi yaradıcılıqda bir üslubdur.

T.Hacıyev "Satira dili" monoqrafiyasında haqlı olaraq yazmışdır: "*Klassik ədəbiyyatımız üçün lirik təbiətli, lirik "vərdişli" sözlər yeni satirik üslubda öz təbiətini inkar edir*"[35].

Sadə, qısa yazmaq tələbi, ədəbi dili xalq dilinə yaxınlaşdırmaq arzusu şifahi xalq ədəbiyyatı nümunələrindən istifadə etmək XIX əsr şairlərinin əsas qayəsi olmuşdur. Onlar danışıq dilinin əsas və gözəl xüsusiyyətlərini şeirimizə gətirmiş, bədii dilin forma və ifadə vasitələrini inkişaf etdirmişdir. Onlar frazeologizmlərdən, atalar sözü, zərb-məsəllər, aforizm, hikmətli söz, bayatı və rəvayətli ifadələrdən, eyni zamanda arxaizm, vulqarizm, xüsusi isimlər, ərəb və fars ifadələri, varvarizm-alınma sözlərdən geniş miqyasda istifadə etmişdilər. Adı çəkilən dil faktları satirik şeirlərdən müvafiq ifadələr

---

[35] Hacıyev, T. Satira dili / T.Hacıyev. – Bakı: ADU, – 1975. – s. 9

və ya misallar göstərilməklə ayrılıqda təsvir edilir.

Fəslin **"Satirik şeirlərdə istifadə olunan bədii təsvir və ifadə vasitələri"** adlandırılan ikinci paraqrafında satirik şeirlərdə istifadə olunan bədii təsvir və ifadə vasitələrinə nəzər yetirilir. Ədəbiyyatşünaslıqda məcazlar sistemi xüsusi yer tutur. Məcazlar bədii əsərlərdə fikrin obrazlılıq gücünü yaradan vasitələrdən biri kimi bədii təfəkkürün məhsuludur. Məcazlar dilə ifadəlilik keyfiyyəti verir və üslubi məqsəd daşıyır. Məcazlar bədii yaradıcılıq nümunələri olmaqla yanaşı, irəli sürülən, təqdim edilən fikri bədiiləşdirir. Yazıçının sənətkarlığının əsas üstün cəhətlərindən biri məcazlarla müəyyənləşir və əsər dəyərləndirilərkən onlar da mühüm tərəflərdən biri kimi nəzərə alınır.

Məcazlar şair üçün kəmiyyət yox, keyfiyyət göstəricisidir. O, yazıçı tərəfindən əvvəlcədən qurulur, yaradıcılıq prossesində bədii təfəkkürün müəyyən fəaliyyət anında irəli sürülən fikrə qoşulur və onu poetikləşdirir.

Dissertasiyada metafora, təşbeh, epitet, metonimiya, sinekdoxa, simvol kimi bədii təsvir vasitələri, mübaliğə, bədii sual, təkrir, təzad, kinayə, inversiya, litota kimi bədi ifadə vasitələri şeirlərin satirik gücünü artıran və ya onlarda bədiiliyi gücləndirən xüsusiyyət olaraq dəyərləndirilir, satira yazan sənətkarların əsərlərindən konkret nümunələr verilməklə əsaslandırılır.

Belə nəticəyə gəlinir ki, XIX əsr satirikləri öz fikirlərini oxucuya çatdırmaq üçün müxtəlif poetik vasitələrdən məharətlə istifadə etmişlər. Yeri gəldikdə klassik şeirimizdə tez-tez istifadə olunan təşbeh, metafora və epitet kimi bədii təsvir vasitələrindən də məharətlə faydalanmışlar.

Fəslin **"XIX əsr satirik şeirinin ideya və mövzuları maarifçi-realizm kontekstində"** adlanan üçüncü paraqrafında realizmin, xüsusilə də maarifçi-realizmin satirik ədəbiyyatın inkişafındakı roldan bəhs açılır. Qeyd olunur ki, XIX əsrdən etibarən dünya və Qərb ədəbi prosesinə maraq, meyil və inteqrasiya baş verən tarixi hadisələr fonunda daha çox nəzərə çarpırdı. Ədəbiyyatın həyata, cəmiyyətə münasibəti problemləri ciddi müzakirə obyektinə çevrilirdi. Azərbaycan maarifçiliyini özünün bütün inkişafı boyunca maraqlandıran əsas məsələlər köhnə həyata, cəhalətpərəstliyə və

fanatizmə qarşı mübarizə, qadın hüququnu müdafiə, yeni həyat arzuları, elm və maarif uğrunda çalışmaq, qabaqcıl ölkələrin mədəniyyəti səviyyəsinə qalxmaq, ölkəni mütərəqqi dövlətlərin mədəniyyəti yoluna çəkmək, şəxsiyyət azadlığı və s. olmuşdur. Maarifçilik, bu dövrdə, əsas etibarilə mədəniyyət, elm və maarif şüarları altında irəliləyirdi. Azərbaycan ziyalıları ümumiyyətlə, avam kütlələri qəflət yuxusundan ayıltmaqda maarifin böyük rol oynadığına inanırdılar. Onlar maarifi, xalqın patriarxal-feodal qanunların buxovlarından azad ola bilməsi üçün əsas vasitə kimi qəbul edirdilər. *"Maarifçilik sadəcə maarifə əhəmiyyət vermək və onun xalq kütlələri arasında yayılması üçün çalışmaqdan ibarət deyildi. Maarifçilik tarixi inkişafın müəyyən mərhələsində yaranan və geniş xalq kütləsinin mənafeyinə xidmət edən siyasi və ictimai bir hərəkat idi*"[36].

Bu paraqrafda həmçinin Azərbaycanda maarifçiliyin özünəməxsus səciyyəvi xüsusiyyətləri aşağıdakı kimi qruplaşdırılaraq ayrılıqda təhlil olunur: dini fanatizmin, mövhumatın, cahilliyin tənqidi; məişətdə köhnə adət-ənənələrin tənqidi; məktəbdarlığın təbliği; mətbuatın təbliği; yeni elmi-texniki nailiyyətlərin təbliği; cəmiyyətdə baş verən neqativ ictimai-siyasi hadisələrin tənqidi; qabaqcıl elmi dünyagörüşün təbliği; yeni etik-estetik dünyagörüşün təbliği; Avropa elminin və mədəniyyətinin təbliği; yeni əxlaqi dəyərlərin təbliği və s. Göstərilən hər bir xüsusiyyət maarifçi sənətkarların əsərlərindən bədii parçalar verilməklə satirik səpkini inkişaf etdirən məsələlər kimi əsaslandırılır.

## Dissertasiya işində aşağıdakı nəticələr əldə olunmuşdur:

1. Tənqidi-satirik şeirlər xalqın mövqeyindən çıxış etmiş, satira cəmiyyət həyatının qayğılarından, şərə qarşı münasibətindən doğulmuşdur. Lakin dövrdən, cəmiyyət hadisələrindən hər cür bədii narazılıq motivlərini, ictimai məzmun daşıyan tənqidi şeirlərin

[36] Qasımzadə, F. Abbasqulu ağa Bakıxanov Qüdsi / F.Qasımzadə. – Bakı: Uşaqgəncnəşr, – 1956. – s. 118

hamısını satirik poeziya sırasında təhlil etmək düzgün deyil.

2. İstər Azərbaycan, istərsə də dünya elmi-nəzəri fikrində satiranın nəzəri dərkində ortaq mövqe nəzərə çarpmır. Satira ilə əlaqədar elmi-nəzəri mülahizələri ümumiləşdirməli olsaq, satiranın ədəbi növ, ədəbi janr, bədii ifadə vasitəsi, bədii üslub, forma, bədii prinsip kimi dəyərləndirmələrin olduğu diqqəti cəlb edir. Hər bir təqdimatda elmi-nəzəri baxışda müəyyən haqlı məqamlar olsa da, bütövlükdə satiranın mahiyyətini, bədii düşüncədə yerini dəqiq ehtiva etmir. Tədqiqat işi nəticəsində bu nəticəyə gəlindi ki, satira bədii gülüşün janrlarında bu və ya digər şəkildə bədii inikasını tapan bədii yaradıcılıq üsuludur.

3. Dissertasiyada satirik yaradıcılıq üsulunun folklor və yazılı ədəbi qaynaqları, xalq ədəbiyyatında satirik üslubun izləri barədə alimlərin fikirlərinə istinad edilərək konkret nümunələr əsasında təhlillər nəzərdən keçirildikdən sonra bu nəticəyə gəlindi ki, xalq ədəbiyyatında işlənən satirik mövzu və motivlər yazılı ədəbiyyat üçün istinad nöqtəsi, satirik üslubun formalaşmasında ilkin qaynaq olmuşdur.

4. XIX əsr Azərbaycan ədəbiyyatında satirik yaradıcılıq üslubunun bədii düşüncəyə gətirilməsinin zəruriliyi elmi-nəzəri cəhətdən "maarifçi-realizmin banisi” kimi dəyərləndirilən M.F.Axundzadənin elmi-ədəbi fəaliyyəti ilə əsaslandırılmışdır. M.F.Axundzadənin qələmə aldığı satirik şeirlərinin əsasını hamını narahat edən aktual həyati məsələlərə cavab tapmaq, insanları ənənəvi fəlsəfi abstraksiyalardan qurtarmaq, daha konkret, real tərəqqiyə nail olmaq təşkil edirdi.

5. Q.B.Zakirin satirik şeir yaradıcılığı XIX əsr Azərbaycan tarixində xüsusi mərhələ, mühüm ədəbi-bədii hadisə olaraq səciyyələndirilməlidir. Şeirlərinin xarakteri, şairin hadisələrə münasibəti həm ictimai, həm də fərdi məzmun daşıyır. Q.B.Zakir poeziyasında satira maarifçi-didaktik istiqamətdə olub, daha çox pozulmuş düzənin, naqis əqidə sahiblərinin tənqidi, əxlaqın saflaşdırılması arzusunun ifadəsi kimi diqqəti cəlb edir.

6. XIX əsrin ikinci yarısında S.Ə.Şirvaninin satirik şeir yaradıcılığı öncül mövqedədir. Şairin həcv yaradıcılığında da şəxsi düşmənçilikdən daha çox ictimai məzmunun ifadəsi, birbaşa tənqidlə

yanaşı, istehza və kinayənin də əsas rol olduğunu görmək mümkündür. Onun çoxsaylı əsərlərində satirik ovqat, əslində, maarifçi-realizm tələbləri əsasında yazılmış, xalqın oyanışı, sivil cəmiyyətə doğru irəliləyişi hədəf olaraq götürülmüşdür.

7. "Əkinçi" qəzetində cəmiyyətdən, zamandan irəli gələn mövzuların satirik üslubda qələmə alınması cəmiyyətin satirik gülüşə, mənəvi durulaşmaya ehtiyacından doğmuşdur. "Əkinçi"nin cəmiyyətdən seçərək ifşa etdiyi mənəvi qüsurların inkarı, onların dəf olunması, əslində, cəmiyyət həyatının sivil inkişafa doğru irəliləyişinin təminatına xidmət etmişdir.

8. Tədqiqat zamanı belə qənaətə gəlindi ki, M.Ə.Sabirin satirik yaradıclığı iki dövrün astanasında formalaşmışdır. Onun satirik şeirləri XX əsrdə mətbuatda dərc olunsa da, yazılma tarixi haqqında eyni fikri söyləyə bilmirik. Yəni, onun satirik yaradıcılığının böyük bir qismi XIX əsrdə qələmə alınıb formalaşmışdır.

9. XIX əsr satiriklərinin ədəbi irsində maarifçi realizm də özünü göstərmiş, satirik örnəklər cəmiyyətdə baş verən ictimai-siyasi dəyişikliklər fonunda baş vermiş, sivil inkişafa doğru güclü irəliləyiş arzusu ədəbi müqayisələr nəticəsində qələmə alınmışdır. Maarifçilər öz baxışlarında hər zaman yeniliyi, müasirliyi təbliğ etmiş, həmin poetik baxışlarla, cəmiyyət həyatını incələmiş, insan olaraq öz mövqelərini və həyati təyinatlarını ortaya qoymuşlar.

10. Tədqiqat zamanı müəyyən etdik ki, satirik şeirdə şair yalnız düzgün dil materialını seçməklə nəzərdə tutduğu məqsədə çata bilər. Buna kömək edən əsas vasitələrdən biri də satirik ifşa üsulları, poetik fiqurlardır. Poetik fiqurlar satiraya xüsusi pafos vermiş, ədiblərin fikirlərini sətiraltı və ya birbaşa ifadə etməsi üçün əsas vasitə rolunu oynamışdır.

Satirik poeziya sahəsində yazıb-yaradan hər bir şairin izlədiyi hədəflər, şərə, yaramazlıqlara, cahilliyə etirazı, tənqidi gülüşü sənətkarı bir fərd olaraq yaxşı cəhətdən səciyyələndirir. Bütün bunlar bir daha satirik poeziyanın Azərbaycan cəmiyyətinin inkişafında mühüm ədəbi faktor olduğunu, irəliyə doğru mənəvi inkişafımızda onun özünəməxsus rolunu göstərməkdədir.

## DİSSERTASİYANIN ƏSAS MÜDDƏALARI BİR SIRA ELMİ JURNAL VƏ KONFRANS MATERİALLARINDA ELMİ MƏQALƏ VƏ TEZİSLƏR ŞƏKLİNDƏ ÖZ ƏKSİNİ TAPIR

1. Seyid Əzim Şirvani yaradıcılığında satira // – Bakı: Dil və Ədəbiyyat. Beynəlxalq elmi-nəzəri jurnal, – 2020. № 2 (114), – s. 274-276
2. Baba bəy Şakir satirasının tənqid hədəfləri // – Bakı: Filologiya məsələləri, – 2020. № 12, – s. 250-257
3. Qasım bəy Zakir satirasının tənqid hədəfləri // – Bakı: Dil və Ədəbiyyat. Beynəlxalq elmi-nəzəri jurnal, – 2020. № 1 (113), – s. 277-279
4. Sabir satirasının tənqid hədəfləri və mövzu dairəsi // – Bakı: Dil və Ədəbiyyat. Beynəlxalq elmi-nəzəri jurnal, – 2022. № 1 (118), – s. 191-194
5. Sabir satirasının mövzu dairəsi və obrazlar aləmi / Təhsin Mütəllimovun 90 illik yubileyinə həsr edilmiş respublika elmi konfransının materialları, – Bakı: – 2022, – s. 292-302
6. Women in Sabıre's satire // "Scientific notes of V.I.Vernadsky Taurida National University", Series: "Philology. Journalism", – 2022. Том 33 (72), № 2, – s. 157-162
7. Zakirin "Xəbər alsan bu vilanın əhvalın" satirasının təhlili haqqında // – Naxçıvan: Naxçıvan Dövlət Universitetinin elmi əsərləri, – 2022. № 26, – s. 186-193
8. Satire in Bakıkhanov verses's stories // Сборник Научных трудов "Образовательные технологии на современном этапе развития научного знания", – 2022. – s. 69-77
9. The comparatıve analysıs of M.A.Sabır's satırıcal poem "the motherland ıs" and N.Kamal's poem "song of the motherland" // Актуалнi питання гуманiтарних наук, – 2022. Том 1, № 54, – s. 177-181
10. Zakir satiralarında atalar sözü və məsəllər // "Azərbaycan filoloji fikrində Qarabağ mövzusu" adlı respublika elmi konfransının materialları, – Bakı: – 16 dekabr, – 2022, – s. 173-178



28

Dissertasiyanın müdafiəsi 23 May 2025-ci il tarixində 14:00-da Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin nəzdində fəaliyyət göstərən ED 1.31 – Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ-1001, Bakı şəhəri, İstiqlaliyyət küçəsi, 53. Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi.

Dissertasiya ilə Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 22 Aprel 2025-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 14.04.2025

Kağız formatı: A5

Həcm: 43 277 işarə

Tiraj: 100 nüsxə